İyunun 5-də İNTEL Korporasiyası idarə heyətinin sədri cənab Kreyq Barrettin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.

Səfərin məqsədi Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarından istifadə səviyyəsi ilə tanış olmaq, təhsil sahəsi üzrə həyata keçirilən proqramlara dəstək vermək olub.

Səfər müddətində qonaqlar ölkəmizdə İKT-nin ən çox tətbiq olunduğu akademik Zərifə xanım Əliyeva adına orta məktəblə tanış olublar. Tanışlıq zamanı təhsil naziri Misir Mərdanov qonağa son illər orta məktəblərin kompüterləşməsi sahəsində görülən işlər, həyata keçirilən tədbirlər barədə məlumat verib. Nazir burada tətbiq olunan “Elektron məktəb”, “Noutbuk-proyektor” modelini nümayiş etdirərək Azərbaycanın digər məktəblərində də mövcud sistem üzrə iş aparılmasının nəzərdə tutulduğunu bildirib.

Məktəbdə “1 şagird -1 kompüter” modeli ilə tanış olan cənab Barrett bu modeli yüksək qiymətləndirib.

Sonra Cənab Kreyq Barrett, təhsil naziri Misir Mərdanov, rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov birgə görüş keçirib, İKT-nin ölkə iqtisadiyyatına təsiri, müəllimlərin treninqlərdən keçirilməsi, “Xalq kompüterləri” layihəsi və tədrisdə noutbuklardan effektiv idarə olunma modeli müzakirə olunub.

Görüşdə İNTEL Korporasiyası, Təhsil, Rabitə və İnformasiya nazirlikləri arasında Niyyət Protokolu imzalanıb. Həmin protokola əsasən 2009-cu tədris ilinədək İNTEL Korporasiyası Təhsil Nazirliyinə 1000 ədəd noutbuk hədiyyə edəcək.